# MİFOLOJİ DÜŞÜNCƏ TƏRZİNİN MARKES ƏSƏRLƏRİNDƏ TƏCƏSSÜMÜ

*Aynur QULİYEVA,*
*Azərbaycan Dillər Universiteti*

«Latın-amerikan romanı» adlanan məfhum kənardan az qala bütöv şəkildə görünsə də, bu qitədəki hər ölkənin ədəbiyyatı və hər bir yazıçı özünün yaradıcılıq zirvəsinə məhz öz yolu ilə gəlib yetişmişdir. Ötən əsr 40-cı illərin axırından ilk yazılarını çap etdirməyə başlayan Q.Markes də özünün fərqli dünyagörüşünə, başqa ədiblərdən seçilən yazı və düşüncə tərzinə məhz uzun sənət təcrübəsi keçərək nail olmuşdur. Həmin bədii yaradıcılıq prinsipləri özünün ən yaxşı təsdiqini, bizim fikrimizcə, «Yüz ilin tənhalığı» romanında daha qabarıq şəkildə göstərir. İlk hekayə və romanlarından başlayaraq, ədəbiyyatşünaslar Qabriel Markesin ədəbi yaradıcılıq metodunu müəyyənləşdirməyə, ona ad qoymağa çalışmışlar. Bəziləri bunu «magik», bəziləri isə «möcüzəvi realizm» məfhumu altında toparlamağa cəhd göstərmişlər. Q.Markesdən soruşanda ki, -o, özünü hansı ədəbi cərəyanın nümayəndəsi hesab eləyir, - Markes cavab vermişdi ki, ona «möcüzəvi realizm» anlayışı daha yaxındır. Məlumdur ki, «möcüzəvi realizm», latın-

amerikan bədii-fəlsəfi düşüncə tərzinin məhsulu olan bu konsepsiya, görkəmli Kuba yazıçısı, adını yuxarıda dəfələrlə çəkdiyimiz Alexo Karpentyerlə bağlıdır. «Möcüzəvi realizm» ilk dəfə olaraq A.Karpentyerin ifadəsində, əgər demək mümkünsə, ədəbi mühitdə özünə vətəndaşlıq qazanmışdır. Bu ifadə, Avropada dəbdə olan bütün ədəbi cərəyanlara yaxınlıq göstərən A.Karpentyerin latın-amerikan xalq sənətini, folkloru, adət və gələnəkləri, eləcə də bu qitənin keçib gəldiyi tarixi yolu küll halında dərk etməsindən, ona doğma münasibətindən irəli gəlirdi. Alexo Karpentyer «Yer səltənəti» adlı romanına yazdığı müqəddimədə ilk dəfə olaraq «möcüzəvi realizm» anlayışına toxunur, bunun latın-amerikan ədəbiyyatına münasibətdə izahını verir: «..mənim tənqid etdiyim «möcüzəvi realizm» ki, var, amerikan «möcüzəsinin» realizmidir. Buna ibtidai, döyünən, arı-duru şəkildə bütün latın-amerikan gerçəkliyində rast gəlmək mümkündür. Hər yerdə əlini ona uzatsan çatar. Hər gün qəribə hadisələr baş verir, qəribə şeylərə rast gəlirsən. Bəzisi deyir ki, mən həmin şeyləri necə adlandırmağı bilmirəm, elə ona görə də onlara ad qoymuram. Bugün isə, o şeylərin adları, forması bizə bəllidir. Bizim daxili, xarici düşmənlərimiz də tanınır. Öz gerçəkliyimizi təsvir etməyə qadir olan dilimizi cilalamışıq. Bu minvalla biz - Latın Amerika yazıçıları, qüdrətli tariximizi əks etdirmək üçün şahid, salnaməçi və yozumçu olmağa hazırıq...» (А.Карпентьер-Царство земнее. М.Художественная литература. 1974. c.16.) Beləliklə, Q.Markesin, eləcə də sonradan dünyada latın-amerikan ədəbiyyatını layiqlə təmsil edəcək bir sıra yazıçıların yaradıcılıq

konsepsiyasının özülündə məhz A.Karpentyerin «möcüzəvi», adlandırdığı realizm dayanırdı. Q.Markes isə sonradan bunu «fantastik realizm» adlandıracaq, fantastik realizmin əvəzolunmaz nümunələrini yaradacaqdı... Q.Markes də latın-amerikan ədəbiyyatının başqa nümayəndələri kimi xalq mədəniyyət və sənətinin dərin qatlarına üz tutur, xalq mifologizmindən bədiiliyin ən vacib mənbəyi kimi faydalanır. Belə axtarışların kökündə xalqın məişəti, dünyagörüşü ilə yaxınlıq əsas rol oynayır. Yazıçı dəfələrlə qeyd etmişdir ki, onun romanlarında rast gəlinən və ola bilsin ki, başqalarına inandırıcı görünməyən əhvalatlar əslində Latın Amerikası həqiqətlərinin bir parçasıdır. Belə əhvalatlar bu məkanda həmişə baş verib və hər gün baş verməkdədir. «...Yüz ilin tənhalığı»nda mən realistəm, çünki Latın Amerikasında hər şey mümkündür, realdır. Və bu reallıq forması dünya ədəbiyyatına nəsə bəxş eləyə bilər». (Gabriel Garcia Marquez - Mario Varqas Liosa. La novela en la America Latina. Dialoqo, p.19)

Latın Amerikası yazıçılarının əksəri, o fikirdədir ki, fantastik, yaxud möcüzəvi realizm ruhunda yazılmış əsərlər, məsələn, Q.Markesin hekayə və romanları xalq həyatını əks etdirir, elə xalqın özü də bu həyatı görür və başa düşür. Həmin romanlarda Latın Amerikasında yaşayan xalqların başa düşməyəcəyi demək olar ki, heç nə yoxdur. Ancaq, bununla belə Q.Markesin fantastik realizmi digər tanınmış latın-amerikan ediblərinin yaradıcılıq konsepsiyasından fərqlənir. İlk növbədə onu qeyd etmək vacibdir ki, Qabriel Markesdəki fantastik realizm - xalq həyatından doğan, karnaval təsiri

bağışlayan, mayasına yumor qatılmış gerçəklikdən süzülüb gəlir. Bu keyfiyyət təkcə Q.Markesin romanlarına deyil, ümumiyyətlə, Latın Amerikasında yaşayıb yaradan ədiblərin bir çoxuna aiddir. Məsələn, böyük rus ədəbiyyatşünası Mixail Baxtin belə yazırdı: «...Şair Pablo Nerudanın yaradıcılığı təkcə ədəbiyyat içərisində mövcud olan formaları deyil, həm də birbaşa karnaval formalarının təsirini yaşadır». (Бахтин М. Творчество Франсуа Пабле и народная культура средневековья и Ренессанса. М. 1965, с.53) Pablo Nerudanın özü isə bu fikirdəydi: «...biz bu vaxta qədər lal-dinməz görünən qitənin enginliklərini sözlərlə doldurmağa məcbur idik. Miflər yaratmaq, hadisələrə və əşyalara ad qoymaq bizə xüsusi bir ləzzət verirdi...» (Пабло Неруда. Признаюсь: Я жил. М.1974, с.12) Görkəmli Çili şairinin bu fikri istər-istəməz yadımıza «Yüz ilin tənhalığı» romanındakı «yaddaş itməkliyini», əşyaları tamam unutmamaq xatirinə, adlarını yazıb onların üstündən asmaqları göz önünə gəlir... Yeni latın-amerikan romanında hər şeydən əvvəl mifoloji, möcüzəvi və fantastik elementlər diqqət çəkir, həm də böyük maraq oyadır. Həmin elementlər heç də gəlmə, yaxud gətirilmə deyil, əksinə elə latın-amerikan mühitində mövcud olan qədim gələnəklərin, reallığın digər bir şəkli, onun başqa bir formasıdır. Q.Markesin özünün sözüdür ki, «...əgər fantastik bir şey varsa, o elə amerikan gerçəkliyinin özüdür - ədəbiyyatsa onun aynasıdır... Bəli, həqiqətən biz fantastik realliq dünyasında yaşayırıq...»

Peru hinduları haqqında çoxcildlik əsər yaradan məşhur yazıçı Manuel Skorsa isə elə bil Q.Markesin sözlərini bir daha

təsdiqləyir və söyləyir ki, - latın-amerikan romanına son vaxtlar yaranan maraq ilk növbədə onlardakı fantaziya bolluğu, latın-amerikan bədii mühitinin ipə-sapa yatmamağıdır...

Ayrı-ayrı yazıçıların ədəbi-bədii etiraflarını bir-biriylə tutuşdursaq, görərik ki, latın-amerikan romanında fantastik özülün təbiəti, eləcə də daşıdığı vəzifə, əlbəttə ki, müxtəlifdir, bir-birindən fərqlənir. Şübhəsiz, fantastik realizmdən, həm də mifoloji düşüncə tərzindən söhbət düşəndə, ilk növbədə belə yaradıcılıq konsepsiyasının ən aparıcı nümayəndəsi sayılan Qabriel Markesin povest və romanları yada düşür. Odur ki, Q.Markesin qələm sənətində belə düşüncə tərzinin necə əks olunduğunu müxtəsər də olsa izləmək, bizcə, maraqlı olardı...

Yuxarıda dediyimiz kimi, mifologizmin, fantastik realizmin hər bir latın-amerikan ədibində müxtəlif kökləri vardır. Məsələn, Migel Anxel Asturmasda bu, Qvatemala hindularının mədəniyyətidir. Karpentyerdəki «möcüzəvi realizmin» özülü zənci-mulat estetikasına aparıb çıxarır. Xuan Rulfoda bu Meksikanın dini inancı ilə bağlıdır. Digər görkəmli bir meksikan yazıçısı Karlos Fuentesdəki mifoloji qat qədim atsek və eləcə də tarixi örnəklərdən qidalanır. Xulio Kortasarın sənətindəki fantastikanın nə qədər qəribə olsa da, yazıçının söylədiyi kimi bircə mənbəyi vardır, - o da Kortasarın özünə ustad saydığı Xorxe Luis Borxesin yaradıcılığıdır.

Heç şübhəsiz, fantastik realizmdən, bu üslubdan öz əsərlərində gen-bol faydalanan qələm sahibi, əlbəttə ki, Qabriel Markesdir. «Latın Amerikasının əsl gerçəkliyi fantastik realizmdir» - deyən Markes yazırdı ki, «...biz fantastik reallıqda doğulub yaşayırıq.

«Yüz ilin tənhalığı»nda mən əslində - realistəm, çünki inanıram, - Latın Amerikasında hər şey baş verə bilər, hər şey realdır... Belə hesab edirəm ki, yazıçının bir vəzifəsi də ədəbiyyatla Gerçəklik arasında mütənasiblik yaratmaqdır... Arada mənə elə gəlir ki, məndə təxəyyül deyilən şey yoxdur və əlimə qələm alıb yazmaqdan ötrü gerçək həyatı çox müşahidə etməliyəm... Şəxsən mənim uydurmadan heç xoşum gəlmir, çünki bu fantaziyaya çevrilir... Mən nə yazmışamsa, onun real özülü vardır, belə olmursa, deməli o fantaziyadır, əgər bu fantaziya sayılırsa, onda bu Uolt Disney kimi bir şeydir. Belə variant isə məni qətiyyən maraqlandırmır. Yazdıqlarımda zərrəcə fantaziya, uydurma tapırlarsa, mən xəcalət çəkirəm. Belə hesab edirəm ki, kitablarımın heç birində təmiz fantaziya deyilən şey yoxdur...» (Caiman Barbudo. La Habana. N-158, febrero de 1981, p.2) Həqiqətən də belədir, Q.Markes bu sözləri sadəcə olaraq gəlişi gözəl söz xətrinə söyləmir. Qabriel Markes təmiz fantaziyanı uydurmanı özünə yaxın buraxmaq istəmir, belə yaradıcılıq prinsipinin reallıqla əlaqəsi olmadığını söyləyir. Onun fikrincə, «...fantaziya, bizim yaşadığımız dünya ilə mən deyərdim ki, heç bir əlaqəsi olmayan bir şeydir, olsa-olsa bu yalnız uydurma, saxta, yalan, özü də bayağı zövqə hesablanmış yalandır ki, bunun da incəsənətə heç bir dəxli yoxdur... Qəribə şeydir, son dərəcə fantastik görünsə də, insan yuxudan ayılıb görür ki, o nəhəng bir həşərata çevrilib, - heç kəsin ağlına bunun fantaziya olduğu gəlməz, bu heç şübhəsiz ki, Kafkanın yaradıcılıq kəşfidir, əksinə, Uolt Disneyin (multiplikasiya filmlərinin yaradıcısı olan böyük amerikan rejissoru - A.Q.) əsas ifadə vasitəsi heç şübhəsiz ki, fantaziya idi... Latın Amerikasında, eləcə də Qəraib

hövzəsində sənətkar nəyisə uydurmaq üstündə baş sındırmır. Bəlkə də onların qarşısında belə bir problemin həlli dayanır - necə eləmək ki, gerçəkliyə inansınlar, yaxud gerçəkliyi nə yolla həqiqətə oxşatmaq mümkündür?!» (Caiman Barbudo. La Habana. N-158, febrerode 1981).

Q.Markesdə mifoloji düşüncə tərzi, fantastik realizmin özülü doğulub yaşadığı məmləkətin - Kolumbiyanın Qəraib dənizi ətrafında yaşayan xalqların mədəniyyət və etnoqrafiyası kökündə qurulub. Əlbəttə, bunun üstünə latın-amerikan mədəni tarixi-mifologiyasını da əlavə etmiş olsaq, həmin mənbəyin nə dərəcədə dolğun və zəngin olduğuna bir daha inanarıq: «...Latın-Amerikan nəsrindəki mifoloji düşüncənin kökləri, başqa elementlərlə yanaşı, bu qitənin keçib gəldiyi tarixi yoldur. Latın Amerikasının kəşfindən tutmuş, konkista, müstəmləkə dövrü, XVI-XVII əsrlərdə baş verən hadisələr. Salnamələr, monastırlarda qələmə alınan sənədlər kəşf olunan yeni qitənin həyatından alınan müxtəlif, rəngarəng miflərlə zəngindir. Amazoniyada insan ayağı dəyməyən yerlər, Eldorado deyilən mifik diyar, amazonların, nəhənglərin, cırtdanların dövləti və sairə... Bütün bunların hamısı bu qitədə yaşayanların, təbii ki, «sənətkarların, yazıçıların hafizəsinə hopmamış deyil...» (Arnau C.El mundo mitico de G.G.Marquez. Barcelona, 1971, p.12)